# KƏPƏNƏKLƏRİ PARÇA ÜZƏRİNƏ KÖÇÜRMƏK İSTƏYƏN QIZ

Tünzalə Babayeva

Bədii tikmənin çoxəsrlik tarixi var. Hələ ibtidai dövrlərdə insanlar təbiətin gözəlliyini, öz hisslərini müxtəlif işarələr və naxışlarla ifadə edərdilər. Başlanğıcını sadə elementlərdən götürən tikmə sənəti sonralar müxtəlif növlərə bölünərək geyimləri, məişət əşyalarını bəzəməyə başlayır.





Azərbaycanda bədii tikmənin güləbətin, saya naxışlı bədii tikmə, təkəlduz, quş gözü texnikası ilə tikmə, muncuqlu tikiş, basmanaxış, düymələmə, qurama və s. kimi növləri məlumdur.

Xaçvari üsulla bəzənən əl işləri evlərdə, ofislərdə divardan asılan istənilən rəsm əsərini əvəz edə bilir. Müasir dövrdə bədii tikmə ilə məşğul olanların sayı azalsa da, ulu nənələrimizdən bizə yadigar qalan bu sənəti yaşadanlar da var. Olardan biri - Pərvanə Qasımova xaç tikişindən istifadə edərək əsl sənət nümunələri yaradır. Həmsöhbətimiz artıq beş ildir ki, bədii tikmə sənəti ilə məşğul olur:

- Beş il öncə təsadüfən rəfiqəmi tikiş tikərkən gördüm. O, parça üzərinə ipək saplarla müxtəlif naxışlar, elementlər həkk edirdi. Elə ilk baxışdan bu iş məni özünə cəlb etdi. Rəfiqəmdən xaç tikiş üsulunu öyrəndim. O, həvəskar tikişçi kimi qalsa da, mən bu sənətdə peşəkarlaşmağı üstün tutdum. Artıq üç ildir ki, sifarişlər götürürəm.

**- Bu sənət rəssamlıq bacarığı da tələb edir. Rəssamlıq təcrübəniz varmı?**

- Rəssamlıq təhsilim yoxdur. Amma valideynlərim uşaqlıqda təsviri sənətə meyilli olduğumu görüb məni rəssamlıq dərnəyinə yazdırmışdılar. Bu bacarığımı bədii tikmə vasitəsilə həyata keçirirəm.

**- Tikmədə sevimli süjetləriniz hansılardır?**

- Tikmələrimdə mənzərə, təbiət təsvirləri üstünlük təşkil edir. Amma hər bir işə ürəyimi qoyur, ciddi və məsuliyyətlə yanaşıram. Məndə artıq adət halı alıb: gördüyüm istənilən təsviri tikmə kimi təsəvvür edir, onun parça üzərində necə görünəcəyini fikirləşirəm.

**- Bir əl tikişi üçün hansı ləvazimatlar tələb olunur?**

- İlk növbədə uyğun parça və saplar lazımdır. Tikmə işində "muline" adlanan ipək ipliklərdən istifadə olunur. Parçanı tarım çəkmək üçün isə xüsusi halqalar vardır. Amma mən halqadan nadir hallarda istifadə edirəm. Sonra isə sxem









- eskiz tələb olunur. Sxemi mənə bəzən rəssam çəkir, bəzən isə satılan hazır sxemlərdən istifadə edirəm. Məsələn, bu yaxınlarda rəssamın mənə çəkdiyi eskiz əsasında kiçik ölçülü xalça -tikmə hazırlamışam. Özüm üçün də çox maraqlı oldu. Bu işi davam etdirirəm. Hazırda başqa bir xalça - tikmə üzərində çalışıram.

**- Yaradıcılığınız vasitəsilə nəyi göstərməyə çalışırsınız?**

- Bu sənət mənə rahatlıq, sakitlik gətirir. İş prosesi zamanı ətraf mühitdən, gündəlik problemlərdən tamamilə təcrid olunur, yalnız yaratdığın işə aludə olursan. İşin nəticəsinə baxanda isə böyük zövq alıram. Əl işlərimlə gördüyüm gözəllikləri, hiss və həyəcanlarımı göstərməyə çalışıram.

**- Arzusunda olduğunuz bir iş varmı?**

- Var. Kəpənəkləri parça üzərinə köçürmək istəyirəm. Rəngarəng, zərif kəpənəkləri... Hələ ki, onları necə göstərəcəyimi tam təsəvvür edə bilmirəm. Amma bu işim, yəqin ki, sifarişlə işlədiyim digər işlərimdən fərqlənəcək.

**- Bu sənətin maddi perspektivləri o qədər də böyük deyil. Bəs sizi bu sənətdə saxlayan nədir?**

- Öz işimə bütün qəlbimlə bağlıyam. Bu sənət özümü ifadə etmək üçün bir vasitədir. Bu elə sənətdir ki, onu sevməsən, davam etdirə bilməzsən. Bədii tikmə bizə nənələrimizdən qalan yadigardır. Onu yaşatmaq lazımdır. Məncə, bu sahə üzrə dərnəklər, kurslar açılarsa, maraqlananların sayı çox olar, tikmə işinə tələbat artar. İnanıram ki, tikmə işi həmişə olacaq və mütləq inkişaf edəcək.

**- Maraqlı söhbət üçün sağ olun!**

- "Azərbaycan xalçaları" bizim kimi xalq sənəti təmsilçilərinin uğurlarını daima işıqlandırır. Biz də buna görə sizə minnətdarıq!

